# Əbədiyyən yaşayanlar

***Torpaq uğrunda ölən varsa Vətəndir!***

***Bu deyimi özlərinə deviz seçən qorxmaz gənclərin qəlbi həmişə Vətən üçün döyünmüşdür. 30 illik dərd gənclərimizi ruhən əzir, onlarda düşmənə nifrət hissini daha da artırırdı. Buna görə də, 2020-ci il sentyabr ayının 27-də başlanan 44 günlük Vətən müharibəsində - qisas müharibəsində gənclərimiz igidliklə döyüşdülər. Ali Baş Komandanın dəmir yumruq hərəkatı, gənclərimizin iradə və sağlam ruhla, Vətən sevgisiylə döyüşməsi nəticəsində Zəfər qazanıldı. Bu Zəfərin qazanılmasında şəhadətə qovuşan oğullarımız həmişə xalqın - insanların qəlbində əbədi yaşayırlar.***

***2021-ci ilin hər günü şəhidlərimiz xatırlanıb, şəhid ailələri və qazilərlə görüş keçirilib, şəhidlərin adına bir çox xatirə kompleksləri tikilmişdir, ruhları yad edilmişdir. İlin sonuncu ayı olan dekabrda 5 şəhidimizin doğum günü, 8 şəhidimizin şəhadətə qovuşduğu gün xatırlanmış, ailələri ilə görüş təşkil edilmiş, məzarları ziyarət olunmuşdur.***

***Vətən uğrunda şəhid olan igid, qəhrəman oğullarımızın məkanları cənnət olsun!***


Şəhid Elnur Rəhimov.

## Heç kəs unudulmur


Şəhid Rüstəm Atakişiyev.


Şəhid Ümman Əmiraslanov.


Şəhid Aqşin Qədirzadə.

### Doğum günləri

Vətən müharibəsində qəhrəmancasına şəhid olan igid oğullarımızın doğum günləri münasibətilə xatirələri anılmışdır.

Vətən müharibəsi şəhidi, Çuxur Qəbələ kənd sakini Şirinov Tale Qadir oğlu (21.11.1996-08.10.2020), Tüntül kənd sakini, şəhid Ağayev Tapdıq Çingiz oğlu (02.12.1990-08.10.2020), Topbağ kənd sakini, şəhid Baxışov Hakim Səyyar oğlu (13.12.2000-18.09.2020), Mıxlıqovaq kənd sakini, şəhid Əmiraslanov Ümman Namiq oğlu (21.12.1996-02.10.2020), Tüntül kənd sakini, şəhid Atakişiyev Rüstəm Zahid oğlunun (24.12.2000-21.10.2020) doğum günü münasibətilə məzarları ziyarət edilib.

Rayon icra hakimiyyətinin, təhsil şöbəsinin əməkdaşları, şəhidlərin təhsil aldıqları kənd məktəblərinin kollektivi və ailə üzvləri şəhidlərin məzarlarını ziyarət etmiş, xatirələrini böyük ehtiramla anaraq, məzarları üzərinə gül dəstələri qoymuş, ruhlarına dualar oxunmuşdur. Şəhidlərin valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildirmişlər.


Şəhid Hakim Baxışov.


Şəhid Tapdıq Agayev.


Şəhid Adəm Heydərov.

### Anım günləri

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş və şəhidlik zirvəsinə ucalmış həmyerlimiz Seyidqışlaq kəndindən Əsəd Zeynallı, Bum qəsəbəsindən Adəm Heydərov, Qəmərvan kəndindən Ağaşirin Babayev, Soltannuxa kəndindən Qoşqar Üzeyirov, Nic qəsəbəsindən Ruslan İdrisov, Şəfili kəndindən Azər Musazadə, Mıxlıqovaq kəndindən Elnur Rəhimov, Seyidqışlaq kəndindən Aqşin Qədirzadənin məzarları rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və şəhidlərin təhsil aldıqları məktəbin kollektivləri tərəfindən ziyarət edilmişdir. Şəhid məzarlarının üzərinə gül dəstələri qoyulmuş, xatirələri anılmış, ruhlarına dualar oxunmuşdur. Bir neçə şəhid ailəsi evlərində ziyarət olunmuşdur. Şəhidlərin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.


Şəhid Azər Musazadə.


Şəhid Ruslan İdrisov.


Şəhid Qoşqar Uzeyirov.


Şəhid Taleh Sirinov.


Şəhid Ağaşirin Babayev.

### Şəhidin xatirəsini əbədiləşdirmək məqsədilə bulaq kompleksi inşa edilib

Qəbələ rayonunun Savalan kəndində Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Əhmədov Mikayıl Hümbət oğlunun xatirəsini əbədiləşdirmək məqsədilə inşa edilmiş bulaq kompleksinin açılışı olub. Açılış tədbirində rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, şəhidin ailə üzvləri və təhsil aldığı məktəbin kollektivi iştirak edib. Çıxış edənlər ötən il sentyabrın 27-də başlanan və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən, şəhidlərin şərəfli döyüş yollarından danışmış və onların xatirələrinin heç bir zaman unudulmayacağını vurğulamışlar. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.


**Əhmədov Mikayıl Hümbət oğlunun xatirəsini əbədiləşdirmək məqsədilə inşa edilmiş bulaq kompleksi.**